


# ŞƏRQ qapısı

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*

Qəzet 1921-ci ildən çıxır

**Təsisçi:** *Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti*

Sayı: 125 (24.012)

6 iyul 2022-ci il, çərşənbə

*Gündəlik ictimai-siyasi qəzet*

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## Orta İxtisas Polis Məktəbində buraxılış mərasimi keçirilib

*Dünən Naxçıvan Muxtar Respublikası Daxili İşlər Nazirliyi Orta İxtisas Polis Məktəbinin buraxılış mərasimi keçirilib.*

Tədbirdə Azərbaycan Respublikasının Dövlət Himni oxunduqdan sonra Naxçıvan Muxtar Respublikasının daxili işlər naziri, polis polkovniki Rəşad İsmayılov çıxış edib.

Qeyd olunub ki, ümummilli lider Heydər Əliyev tərəfindən müəyyənləşdirilmiş siyasi strategiyanın ardıcıl və dönmədən həyata keçirilməsi muxtar respublikada dinamik inkişaf və sosial-iqtisadi tərəqqi baxımından yeni tarixi mərhələnin əsasını qoyub. Bu gün Naxçıvan yalnız iqtisadi inkişaf tempinə görə deyil, həm də ictimai-siyasi sabitlik, əmin-amanlıq və təhlükəsizlik baxımından regionun ən stabil diyarıdır.

Vurğulanıb ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin diqqət və qayğısı ilə Orta İxtisas Polis Məktəbində yaradılan hərtərəfli şərait kursant və dinləyicilərin tədris olunan dərsləri tam mənimsəmələrinə, intellektual təfəkkürə malik, nəzəri və praktik biliklərə yiyələnmiş peşəkar polis zabiti kimi yetişmələrinə geniş imkanlar açıb. Təhsil sahəsində uğurlu Dövlət proqramlarının icra edilməsi və xüsusi təyinatlı təhsil müəssisələrinin fəaliyyətinə göstərilən müstəsna qayğı 44 günlük Vətən müharibəsində naxçıvanlı gənclərin nümayiş etdirdiyi böyük şücaət və vətənpərvərlik nümunəsinin təməl daşı olmaqla yanaşı, muxtar respublikada həyata keçirilən siyasi xəttin müdrikliyini və alternativsizliyini bir daha sübut etdi.

Diqqətə çatdırılıb ki, cari il fevralın 7-də Naxçıvan Muxtar Respublikası daxili işlər orqanlarının fəaliyyəti və qarşıda duran vəzifələr barədə keçirilən müşavirədə Ali Məclisin Sədri kadr işinin təkmilləşdirilməsi, peşəkar kadr korpusunun yaradılmasının nəzarətdə saxlanılması, şəxsi heyətlə müvafiq xidməti dərslərin, kursların keçirilməsi, müsbət təcrübənin yayılmasının təşkil olunması, bu sahədə Orta İxtisas Polis Məktəbinin imkanlarından istifadə olunması ilə bağlı qarşıya mühüm vəzifələr qoyub. Həmin vəzifələrin yerinə yetirilməsi üçün Orta İxtisas Polis Məktəbi ötən dövr ərzində fəaliyyətini müasir standartlar çərçivəsində quraraq təkcə təhsil müəssisəsi kimi deyil, həm də daxili işlər orqanlarının tədris bazası kimi fəaliyyət göstərib. Belə ki, məktəbdə kursantlar və dinləyicilər üçün müvafiq təhsil proqramına uyğun olaraq həyata keçirilən tədris prosesi ilə yanaşı, polis əməkdaşlarının peşə hazırlığı səviyyəsinin yüksəldilməsi məqsədilə müxtəlif xidmət sahələri üzrə virtual və nəzəri təlimlər, peşəkar mütəxəssislər cəlb olunmaqla əlavə seminar-məşğələlər də keçirilib. Eyni zamanda Orta İxtisas Polis Məktəbinin pedaqoji heyətinin peşə ustalığının artırılması məqsədilə muxtar respublikanın ali və orta ixtisas təhsili müəssisələri ilə qarşılıqlı əlaqələr yaradılıb, təcrübəli pedaqoqların iştirakı ilə metodiki məşğələlər keçirilərək müəllimlərin peşəkarlıqlarının yüksəldilməsi istiqamətində zəruri tədbirlər görülüb.



Bildirilib ki, Naxçıvan Muxtar Respublikası Daxili İşlər Nazirliyinin Orta İxtisas Polis Məktəbi ikinci ildir ki, məzunlarını yola salır. Ötən il Polis Məktəbini başa vurmuş 25 nəfər daxili işlər orqanlarının müxtəlif xidmət sahələrində ictimai asayişin və təhlükəsizliyin qorunması, cinayətkarlığa qarşı mübarizə sahəsində müqəddəs vəzifə borclarını yerinə yetirir. Məktəbdən məzun olacaq 30 gənc zabit də daxili işlər orqanlarında vəzifələrinin icrasına başlayarkən ulu öndər Heydər Əliyev ideyalarına daim sadiq qalacaq, Azərbaycan polisinin fədakar və nəcib missiyasını ləyaqətlə yerinə yetirəcək.

Nazir çıxışının sonunda məzunlara gələcək xidmətlərində uğurlar arzulayıb, daxili işlər orqanlarına göstərilən yüksək dövlət qayğısına görə bütün şəxsi heyət adından Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədrinə minnətdarlığını bildirib.

Naxçıvan Muxtar Respublikası Daxili İşlər Nazirliyinin Orta İxtisas Polis Məktəbinin rəisi, polis polkovniki Kamil Məmmədəliyev çıxış edərək məktəbdə yaradılan şəraitdən, həyata keçirilən tədbirlərdən danışıb. Bildirilib ki, fəaliyyətə başladığı gündən Polis Məktəbi Ali Məclis Sədrinin hərtərəfli diqqət və qayğısı ilə əhatə olunaraq inkişaf yoluna qədəm qoyub, burada kursant və dinləyicilərin yüksək səviyyədə təhsil alması üçün möhkəm maddi-texniki baza, nümunəvi təlim-tədris sistemi yaradılıb. Kursant və dinləyicilərin bilik səviyyəsinin artırılması, müəllim heyətinin pedaqoji ustalığının yüksəldilməsi, kursantların milli-mənəvi dəyərlərimizə sadiqlik ruhunda tərbiyə olunması diqqətdə saxlanılıb.

Orta İxtisas Polis Məktəbinin məzunu, polis kiçik leytenantı Ruzi Əhmədov çıxış edərək məzunlar adından onlar üçün yaradılan şəraitə görə minnətdarlıq edib, Polis Məktəbinin adını bundan sonra da uca tutacaqlarına, dövlətə və polis andına sadiq olacaqlarına, nizam-intizamla daim öndə gedəcəklərinə söz verib.

Sonra məzunlara diplomlar təqdim olunub. Məktəbi fərqlənmə diplomu ilə bitirən polis kiçik leytenantı Ruslan Məmmədov tərəfindən xatirə kötüyünə lövhə vurulub. Orta İxtisas Polis Məktəbinin marşı ifa edilib, tədbir şəxsi heyətin tribunanın önündən təntənəli keçidi ilə başa çatıb.

✍ **Güntac ŞAHMƏMMƏDLİ**

## Muxtar respublikada əhalinin ərzaq və kənd təsərrüfatı məhsullarına olan tələbatının ödənilməsi üçün bir sıra işlər görülür

***Muxtar respublika iqtisadiyyatında böyük çəkiyə malik olan kənd təsərrüfatı sürətlə inkişaf edir. Artan inkişaf göstəriciləri arasında kənd təsərrüfatının xüsusi çəkisinin olması isə təsadüfi deyil. Əhalinin ərzağa olan tələbatını, əsasən, öz potensialı və imkanları hesabına ödəyə bilməsi üçün muxtar respublikada kənd təsərrüfatının inkişaf etdirilməsi istiqamətində mühüm islahatlar reallaşdırılmış və bu proses davam etdirilir.***

Qeyd edək ki, fevralın 25-də Naxçıvan Muxtar Respublikasında təsərrüfat işlərinə hazırlıq və qarşıda duran vəzifələr barədə keçirilən müşavirədə İqtisadiyyat Nazirliyinin qarşısına qoyulmuş tapşırıqların icrası diqqət mərkəzindədir.

Kənd təsərrüfatının inkişafı muxtar respublikada ailə təsərrüfatlarının fəaliyyəti üçün də geniş imkanlar açır. İstər məhsul istehsalı və satışı üçün yaradılan şərait, istərsə də texnika təminatı və dövlət maliyyə dəstəyinin göstərilməsi ailə təsərrüfatlarının sayının ilbəil artmasına səbəb olmuşdur. Bu gün muxtar respublikada ailə təsərrüfatlarının əksər hissəsinin aqrar sahə üzrə ixtisaslaşması daxili bazarın keyfiyyətli yerli məhsullarla təminatına öz töhfəsini verir.

Bu istiqamətdə dövlət maliyyə dəstəyi və özəl investisiya hesabına Naxçıvan şəhərində 1 arıçılıq təsərrüfatının yaradılması, 1 süd məhsullarının emalı müəssisəsinin fəaliyyətinin bərpası və müxtəlif yeyinti məhsullarının qablaşdırılması sahəsinin yaradılması, Şərur rayonunda 1 dondurma istehsalı sahəsinin, 3 heyvandarlıq təsərrüfatının yaradılması, 5 heyvandarlıq təsərrüfatının genişləndirilməsi, Babək rayonunda 1 arıçılıq təsərrüfatının yaradılması, 2 heyvandarlıq təsərrüfatının genişləndirilməsi, Ordubad rayonunda 2 heyvandarlıq, 1 limonçuluq təsərrüfatının yaradılması, 1 bağçılıq təsərrüfatının genişləndirilməsi, Culfa rayonunda 1 quşçuluq təsərrüfatının yaradılması, Şahbuz rayonunda 1 heyvandarlıq, 1 arıçılıq təsərrüfatının, 1 damazlıq ana arı yetişdirmə təsərrüfatının yaradılması, 1 heyvandarlıq və 1 arıçılıq təsərrüfatının genişləndirilməsi, Kəngərli rayonunda 1 heyvandarlıq təsərrüfatının genişləndirilməsi, Sədərək rayonunda 1 heyvandarlıq təsərrüfatının yaradılması başa çatdırılmışdır.

Həmçinin dövlət maliyyə dəstəyi hesabına Naxçıvan şəhərində 1 heyvandarlıq təsərrüfatının, 1 unlu-qənnadı məmulatlarının is-



tehsalı sahəsinin genişləndirilməsi, Şərur rayonunda 3 heyvandarlıq, 1 bağçılıq təsərrüfatının yaradılması, 1 meyvə araqları istehsalı sahəsinin, 4 heyvandarlıq təsərrüfatının genişləndirilməsi, Babək rayonunda 2 heyvandarlıq, 1 arıçılıq təsərrüfatının yaradılması, 1 alma sirkəsi istehsalı sahəsinin və 1 heyvandarlıq təsərrüfatının genişləndirilməsi, Ordubad rayonunda 1 bağçılıq, Culfa rayonunda isə 1 arıçılıq təsərrüfatının yaradılması, 2 heyvandarlıq təsərrüfatının genişləndirilməsi, Şahbuz rayonunda 2 ailə təsərrüfatları məhsullarının emalı sahəsinin, 1 heyvandarlıq təsərrüfatının yaradılması, Kəngərli rayonunda 1 çaxır istehsalı sahəsinin və 2 heyvandarlıq təsərrüfatının genişləndirilməsi davam etdirilmişdir.

Yeni növ və çeşiddə məhsul istehsalına nail olunması, idxalı əvəz edən məhsulların həcminin artırılması məqsədilə layihələr hazırlanmış, ailə təsərrüfatlarının maarifləndirilməsi





məqsədilə Naxçıvan şəhəri, Şərur, Babək və Kəngərli rayonlarında 10 halda ailə təsərrüfatları ilə keçirilmiş görüşdə layihələrin təqdimatı olmuşdur. Bu layihələrin reallaşdırılması və təsərrüfatların fəaliyyətinin stimullaşdırılması məqsədilə cari ilin ötən dövrü ərzində Sahibkarlığın İnkişafı Fondu tərəfindən 41 ailə təsərrüfatına 611.300,0 manat həcmində dövlət maliyyə dəstəyi göstərilmişdir.

Muxtar respublikada aqrar sektorun inkişafı hər zaman ön planda tutulur. Bu sahədə sahibkarlıq fəaliyyətinin dəstəklənməsi, iqtisadi dəyəri yüksək layihələrin həyata keçirilməsinin təşviqi yerli xammal ehtiyatlarından istifadənin genişləndirilməsinə yol açır. Bu məqsədlə dövlət maliyyə dəstəyi hesabına Naxçıvan şəhərində "Naxplast" Məhdud Məsuliyyətli Cəmiyyəti tərəfindən yeni istehsal xətlərinin yaradılması, 1 süd məhsullarının emalı müəssisəsinin fəaliyyətinin bərpası və müxtəlif yeyinti məhsullarının qablaşdırılması sahəsinin yaradılması, Babək rayonunda 1 plastik qapı-pəncərə istehsalı sexinin fəaliyyətinin genişləndirilməsi, Şərur rayonunda dondurma istehsalı sahəsinin yaradılması başa çatdırılmışdır. Naxçıvan şəhərində "Naxçıvan Xalça və İplik İstehsalı Müəssisəsi" Məhdud Məsuliyyətli Cəmiyyətinin, enerji içkilərinin istehsalı sahəsinin yaradılması, akvarium balıqlarının yetişdirilməsi sahəsinin, Şərur rayonunda Şərur Sənaye Məhəlləsinin, bitki yağı istehsalı zavodunun yaradılması, meyvə araqları istehsalı sahəsinin genişləndirilməsi davam etdirilmişdir. Babək rayonunda Babək "Sirab" Açıq Səhmdar Cəmiyyəti tərəfindən yeni istehsal xəttinin yaradılması, alma sirkəsi istehsalı sahəsinin genişləndirilməsi, Ordubad rayonunda heyvandarlıq kompleksinin yenidən qurulması və süd məhsullarının emalı sahəsinin yaradılması, Şahbuz rayonunda 1 spirtli içki, mürəbbə və turşu istehsalı sahəsinin yaradılması, 1 çörək (lavaş) istehsalı, kənd təsərrüfatı məhsullarının və təbii bitkilərin konservləşdirilməsi sahəsinin, Kəngərli rayonunda yeni duz istehsalı müəssisəsinin yaradılması, çaxır istehsalı sahəsinin genişləndirilməsi prosesləri də diqqətdə saxlanılır.

Cari ilin ötən dövrü ərzində yerli xammala əsaslanan istehsal sahələrinin yaradılmasına Sahibkarlığın İnkişafı Fondu tərəfindən 2 794 300,0 manat həcmində dövlət maliyyə dəstəyi göstərilmişdir.

Hər il təşkil edilən, yerli məhsullarımızın satışına və təbliğinə geniş imkanlar açan, süni qiymət artımına manеə yaradan, bazardakı bolluğu təmin edən kənd təsərrüfatı məhsullarının satış-yarmarkaları daxili bazarın inkişaf etdirilməsində əsas istiqamətlərdən biri kimi mühüm rol oynayır. Bayram ərəfəsində təşkil olunmuş satış-yarmarkada 208 ailə təsərrüfatçısı birbaşa öz məhsullarını satışa çıxarmaq imkanı əldə etmiş, eyni zamanda ailə təsərrüfatları tərəfindən istehsal olunan kənd təsərrüfatı məhsulları, o cümlədən meyvə-tərəvəz məhsullarının keyfiyyət və təhlükəsizlik göstəricilərinə nəzarət "İstehlak Mallarının Ekspertizası Mərkəzi" Məhdud Məsuliyyətli Cəmiyyəti tərəfindən yerində aparılmışdır.

Muxtar respublikada aqrar sahədə aparılan uğurlu dövlət siyasəti deməyə əsas verir ki, kənd təsərrüfatının inkişafı və ərzaq təhlükəsizliyinin təmin olunması sahəsində qarşıya qoyulan vəzifələr bundan sonra da diqqət mərkəzində saxlanılacaq, ardıcıl tədbirlər həyata keçiriləcək.

***Naxçıvan Muxtar Respublikası İqtisadiyyat Nazirliyinin mətbuat xidməti***

# Dövlətimizin əsas amalı insan sağlamlığıdır

*Tibbi xidmətin keyfiyyətcə müasir standartlar səviyyəsinə yüksəldilməsi, vətəndaşların sağlamlığının etibarlı təminatı məsələləri dövlətin üzərinə götürdüyü sosial öhdəliklər sırasında mühüm yer tutur. Ulu öndərin müəyyənləşdirdiyi strateji siyasət kursunu bu gün Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev səhiyyə sistemində də layiqincə davam etdirir. Ötən müddətdə bu vacib sahənin inkişafı, onun maddi-texniki bazasının və kadr potensialının gücləndirilməsi, infrastrukturun yeniləşdirilməsi daim diqqət mərkəzində saxlanılmışdır. Dövlət büdcəsindən səhiyyəyə ayrılan vəsaitlərin ildən-ilə artırılması tibb müəssisələrinin fəaliyyətinin, ümumilikdə, tibb xidmətinin çağdaş tələblər səviyyəsinə qaldırılmasına yeni imkanlar açmışdır. Ölkə başçısının da dediyi kimi:* ***“Səhiyyə xidməti ən yüksək səviyyədə olmalıdır. Bu bizim sosial siyasətimizin əsas istiqamətidir. Çünki insanların sağlamlığı üçün bütün işlər görülməlidir. Azərbaycanda güclü iqtisadi və sosial siyasət aparılır. Hər bir yaşayış məntəqəsində, hər bir rayonda tibbi xidmət yüksək dünya səviyyəsində olmalıdır”.***

Son illər Azərbaycanda bütün sahələrin dinamik inkişafını hər birimiz öz həyatımızda görürük. Bu inkişafın təməlində dayanan başlıca amillərdən biri də səhiyyə ilə bağlı qəbul olunmuş mühüm Dövlət proqramlarıdır. Həmin proqramlar əhalinin sağlamlığının daha etibarlı şəkildə qorunması, onların ən yüksək səviyyədə tibbi xidmətlərlə əhatə olunması, icbari tibbi sığortanın tətbiqi sözügedən istiqamətdə gerçəkləşən siyasətin əsas prioritetlərini təşkil edir.





Səhiyyədə qazanılan uğurları bu gün muxtar respublikamızda da görmək olar. Bəhs edilən sahənin yeni dövrün tələblərinə uyğunlaşdırılması, əhalinin sağlamlığının etibarlı təminatına imkan verən müasir tibb infrastrukturunun yaradılması Naxçıvanda dinamik xarakter alan genişmiqyaslı quruculuq işlərinin mühüm tərkib hissəsinə çevrilmişdir. Ölkədə ilk dəfə olaraq pullu tibbi xidmətin məhz muxtar respublikamızda ləğv edilməsi, həyata keçirilən çox mühüm islahatlar öz bəhrəsini göstərməkdədir. Diyarımızda yüzlərlə səhiyyə obyektinin tikilərək, yaxud yenidən qurularaq istifadəyə verilməsi ölkəmizin iqtisadi potensialının sosial siyasətin icrasına, əhalinin sağlamlığına yönəldiyinin parlaq göstəricisidir.

Naxçıvanın bir çox mötəbər beynəlxalq tədbirlərə ev sahibliyi etməsi artıq ənənəyə çevrilib. İyun ayının 18-də muxtar respublikamızda Beynəlxalq Tibbi Forumun keçirilməsi də səhiyyə infrastrukturunun yüksək səviyyədə olmasına əsaslanırdı. Qeyd edək ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri 2022-ci il iyunun 10-da “Naxçıvan Muxtar Respublikasında Birinci Beynəlxalq Tibbi Forumun keçirilməsi haqqında” Sərəncam imzalamış, forumun keçirilməsi ilə bağlı Təşkilat Komitəsi yaradılmışdır. İyunun 18-də isə Naxçıvan Dövlət Milli Dram Teatrında Birinci Beynəlxalq Tibbi Forumun açılış tədbiri keçirilmiş, Ali Məclisin Sədri cənab Vasif Talıbov forumun açılışında iştirak etmişdir. Forumda çıxış edən muxtar respublika rəhbəri demişdir: ***“Sağlam cəmiyyətin formalaşmasında səhiyyənin mühüm rolu vardır. Ona görədir ki, tarixən tibb elminə, həkimlik sənətinə qayğı insanlığa qayğı kimi dəyərləndirilmişdir. Müasir dövrdə də ölkələrin inkişafında əhalinin sağlamlıq səviyyəsi və tibbi xidmətlə təminat əsas göstərici hesab olunur”.***

Dünyanın 7 ölkəsindən 350-dən artıq elm adamının qatıldığı forumda 700-dən çox iştirakçı təmsil olunurdu. Tibbi forumun muxtar respublikamızda keçirilməsi uzun illər ərzində qurulan müasir səhiyyə infrastrukturu və tibb təhsilinin keçdiyi dinamik inkişaf yolunun uğurlu yekunu kimi yüksək əhəmiyyətə malikdir. Bunun nəticəsidir ki, Azərbaycan Tibb Universitetinin və xaricdən gələn həkim-mütəxəssislərin iştirakı ilə xəstələrin konsultativ müayinə, əməliyyat və müalicələri keçirilmişdir. Forum iştirakçıları və mövzuların müxtəlifliyi təbabətin aktual problemlərinin həlli yolunda yüksək səviyyədə müzakirələrin aparılması, gələcəkdə həkim olmaq arzusunda olan tələbələrin də hazırlığına mühüm töhfə olacaqdır.

Ümummilli liderin 1993-cü ildə ölkə rəhbərliyinə qayıdışından sonra həyata keçirməyə başladığı islahatların içərisində Naxçıvan Dövlət Universitetində Tibb fakültəsinin yaradılması da yurd sevgisinin böyük ifadəsidir. ***“Səhiyyə xalqımızın sağlamlığı və gələcəyidir”***, – deyən ulu öndər Heydər Əliyev hər zaman bu sahəyə diqqətlə yanaşıb, xüsusi qayğı göstərib. Bu gün Naxçıvanda səhiyyə sektorunda aparılan kompleks islahatlar ulu öndərin layiqli davamçıları tərəfindən ardıcıllıqla həyata keçirilir. Naxçıvan Dövlət Universitetində Tibb fakültəsinin yaradılması, Naxçıvan Tibb Kollecinin müasir tələblər səviyyəsində yenidən qurulması, ixtisasların sayının artırılması səhiyyə müəssisələrinin ixtisaslı tibbi kadrlarla təminatına imkan verir. Həmçinin həkimlər və orta tibb işçiləri ixtisasartırma kurslarına göndərilir, onların bilik səviyyəsi və peşəkarlığı artırılır. 25 tələbə ilə fəaliyyətə başlayan Naxçıvan Dövlət Universitetinin Tibb fakültəsində hazırda 1254 tələbə təhsil alır. Bu müddətdə Naxçıvan Dövlət Universitetində də təhsil və elmi-tədqiqat işlərinin səviyyəsinin daha da yüksəldilməsi, beynəlxalq əlaqələrin genişləndirilməsi, maddi-texniki bazanın əsaslı şəkildə möhkəmləndirilməsi və yenidən qurulması istiqamətində çoxşaxəli tədbirlər həyata keçirilmişdir. Təhsildə qloballaşma və beynəlmiləlləşmə faktorlarının mühüm əhəmiyyət kəsb etdiyi bir dövrdə universitetin dünyanın ən yaxşı ali məktəbləri sırasında yer alması qürurverici nailiyyətdir.





Naxçıvanda keçirilən tibbi forum çox önəmli məqsəd daşıyır ki, bu da biz həkimlərin qarşılıqlı təcrübə mübadiləsi aparmalarına böyük imkan yaradacaq. Bundan əlavə, yeni tərəfdaşlıqlar muxtar respublikada alitəhsilli tibbi kadr hazırlığı, səhiyyənin yüksəkixtisaslı yerli mütəxəssislər ilə təminatı, Naxçıvan Dövlət Universitetində bu sahədə tədrisin keyfiyyətinin yüksəldilməsi, dünya tibb elminin yeniliklərinin mənimsənilməsi və tətbiqi baxımından da öz töhfəsini verəcək. Müasir dövrümüzdə, qloballaşan dünyada milli mədəniyyət, tarixi və etnik köklərin birliyi ilə bir-birinə bağlı olan Azərbaycan və Türkiyə bütün sahələrdə olduğu kimi, təhsil sahəsində də əməkdaşlıq və bərabərlik nümayiş etdirir. Naxçıvan Dövlət Universitetinin beynəlxalq əlaqələrində Türkiyə Respublikasının özünəməxsus yeri vardır. Bununla yanaşı, İ.M.Seçenov adına Birinci Moskva Dövlət Tibb Universitetinin Bakı filialının, həmçinin forum çərçivəsində türk professor-alim kollektivinin burada iştirak etməsi, bir neçə ali təhsil ocağının da bu ali təhsil müəssisəsilə əlaqələr qurması, müqavilələr imzalaması, sözsüz ki, bu əlaqələri daha da inkişaf etdirəcəkdir.

Dünya üzrə tanınmış alimlərin, professorların iştirak etdiyi I Beynəlxalq Tibbi Forumda tibbin ən son nailiyyətlərinə dair elmi müzakirələrin aparılması, təqdimatlar, sözsüz ki, biz həkimlər üçün müəyyən məsələlərin müzakirəsi baxımından çox əhəmiyyətli oldu. Onu da xüsusi olaraq qeyd edək ki, tibbi forumun Naxçıvanda keçirilməsi Azərbaycan səhiyyəsi tarixində böyük hadisədir. Bu forumun özəlliyi tibb elminin bütün sahələrini əhatə etməsində, universitetlərlə əməkdaşlıq müqavilələri imzalanmasındadır. Bu müqavilələr gələcəkdə elmi və tibbi klinik sferada əməkdaşlığa da yol açacaq. Çox sayda dərnəklər, ictimai birliklər, Azərbaycanın tanınmış tibb adamları bu foruma öz töhfələrini verdilər. Bu foruma müxtəlif ölkələrdən qatılan həkimlər və alimlərlə söhbət etmək, onlarla müxtəlif tibbi sahələrdə fikir və düşüncələrimizi bölüşmək imkanı da əldə etdik. Belə bir forumun iştirakçısı olmaq isə bizim üçün böyük fəxr idi. Forumda iştirak edən qonaqların böyük razılıq və yüksək təəssüratla ayrılmaları çox qürurverici oldu.

Muxtar respublikanın bütün bölgələrində yüksək memarlıq üslubu ilə inşa olunan, hər cür tibbi avadanlıqlarla təchiz edilən səhiyyə obyektləri bir gerçəkliyi vurğulayır: dövlətimizin əsas amalı insan sağlamlığıdır. Bu gün nəinki Naxçıvan şəhərində, eləcə də ən ucqar dağ və sərhəd yaşayış məntəqələrində yüksək tibbi şərait yaradılıb, günün bütün saatlarında xəstələri abad yollarla, müasir tibbi avadanlıqlarla təchiz edilmiş təcili yardım maşınları ilə lazımi səhiyyə ocağına çatdırmaq imkanına nail olunub. Əgər bu gün xəstələr pulsuz dərmanlarla təmin olunursa, sağlam gələcəyimiz naminə təhsil müəssisələrində profilaktik tədbirlər həyata keçirilirsə, ana və körpələrin vaxtlı-vaxtında müayinəsi aparılırsa, müxtəlifixtisaslı həkim briqadaları bütün yaşayış məntəqələrində insanları tibbi yoxlamaya cəlb edirsə, bu, sağlamlığa göstərilən qayğının ən böyük nümunəsidir.

Muxtar respublikamızda aparılan quruculuq işləri də sağlamlığımıza qayğının ifadəsidir. Çünki insanlara müasir binalarda işləmək imkanı yaradılırsa, yaşayış məntəqələrimiz abadlaşdırılırsa və bu da ekoloji mühitin qorunmasına xidmət edirsə, bu bizə – “sağlamlığımıza tükənməz qayğı var”, – deməyə haqq verir. Muxtar respublikada əhalinin sağlamlığının qorunması və tibbi xidmətin səviyyəsinin yüksəldilməsi bu gün dövlətimizin qarşısında duran əsas vəzifələrdəndir. Aparılan genişmiqyaslı islahatlar nəticəsində diyarımızda yeni səhiyyə ocaqları tikilməkdə, təmirə ehtiyacı olanlar əsaslı surətdə yenidən qurulmaqda, müasir tibbi avadanlıqlarla təchiz olunmaqdadır. Bu gün qətiyyətlə demək olar ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin ***“Dövlətimizin ən qiymətli incisi onun vətəndaşlarıdır”*** prinsipi əsas götürülərək muxtar respublikada əhalinin sağlamlığının qorunması, xidmətlərin keyfiyyətinin yaxşılaşdırılması, müasir tibbi avadanlıqlarla təchiz olunmuş səhiyyə ocaqlarının inşası bundan sonra da diqqət mərkəzində saxlanılacaqdır.

Müasir Azərbaycan səhiyyəsinin dinamik inkişafının memarı olan ulu öndər Heydər Əliyevin siyasi kursunun ölkəmizdə, eləcə də muxtar respublikamızda sədaqətlə, yaradıcı şəkildə davam etdirilməsi digər sahələr kimi, səhiyyə sistemində də yeni uğurlara vüsət verib. Əminliklə demək olar ki, görkəmli dövlət xadiminin uzun illərə hesablanmış strategiyasının uğurla tətbiqi nəticəsində səhiyyə sistemini qarşıda daha böyük tərəqqi, nailiyyətlər gözləyir.

*Bu da bir həqiqətdir ki, insanların baş tacı onların sağlamlığıdır. Amma xəstəliklərdən də heç zaman sığortalanmamışıq. Xoşbəxtik ki, artıq səhiyyənin acınacaqlı illəri arxada qalmışdır. İndi səhiyyə infrastrukturunda aparılan islahatlar nəticəsində gündən-günə yeni nailiyyətlər əldə olunur. Danılmaz faktdır ki, bu torpaq sevgisi, yurd məhəbbəti muxtar respublikanın hər qarışını əhatə edib. Düşünülmüş, planlı şəkildə gələcəyə yol almış bu inkişaf tablosunda səhiyyənin xüsusi yeri var. Çünki bu günümüz kimi, gələcəyimiz də yalnız sağlam insanların sağlam düşüncələri üzərində qurulacaqdır.*

**İlhamə MUSTAFAYEVA**
***Naxçıvan Dövlət Universitetinin Tibb fakültəsinin Təməl tibb fənləri kafedrasının müdiri, tibb üzrə fəlsəfə doktoru***

# Birinci Beynəlxalq Tibbi Forumun sponsorları mükafatlandırılıb



Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2022-ci il 10 iyun tarixli Sərəncamına əsasən Naxçıvan Dövlət Universitetinin təşkilatçılığı ilə keçirilən Birinci Beynəlxalq Tibbi Forumda baş sponsor “Nəqşicahan” Holdinq Şirkətlər Qrupunun və digər yerli şirkətlərin fəaliyyəti qiymətləndirilib. Bu məqsədlə ali təhsil ocağında keçirilən tədbirdə universitetin rektoru Elbrus İsayev qeyd edib ki, Ali Məclis Sədrinin təşəbbüsü və imzaladığı müvafiq Sərəncama əsasən Azərbaycan ali təhsil məkanında ilk dəfə Naxçıvan Dövlət Universitetində keçirilən tibbi forum öz əhəmiyyəti və gələcək perspektivləri ilə nəinki universitet üçün, ümumən, muxtar respublikanın səhiyyə sistemi və digər sahələrə müsbət təsiri ilə yadda qalan oldu.

Rektor bildirib ki, təşkilati baxımdan da öz unikallığı ilə seçilən forum muxtar respublikaya səfər edən xarici qonaqlar tərəfindən yüksək qiymətləndirildi. Həmçinin diqqətə çatdırılıb ki, belə mötəbər foruma ev sahibliyi etmək universitetdə müasir Tibb təhsilinin də yüksək səviyyəsinin göstəricisi hesab oluna bilər. Elbrus İsayev forumun möhtəşəm təşkilində baş sponsorlar – Türkiyədən Memorial Xəstəxanalar Qrupu, “Nəqşicahan” Holdinq Şirkətlər Qrupu və digər xarici və yerli şirkətlərin xüsusi rolunu qeyd edib. Rektor forumda sponsorların iştirakını yüksək qiymətləndirib və yerli şirkətlər yüksək təşkilatçılığa görə sertifikatla təltif edilib.

***Naxçıvan Dövlət Universitetinin Televiziya, mətbuat və ictimaiyyətlə əlaqələr bölməsi***

*Naxçıvan Muxtar Respublikası Dövlət Vergi Xidməti və onun yerli qurumları tərəfindən iyun ayında muxtar respublika ərazisində fəaliyyət göstərən ticarət, iaşə, xidmət və digər sahələrdə yoxlama və monitorinqlər davam etdirilib, 7 vergiödəyicisində qanunvericiliyin pozulması faktları aşkar olunub.*

# Operativ vergi nəzarəti tədbirləri görülür



Operativ vergi nəzarəti tədbirləri zamanı 3 vergiödəyicisinə məxsus obyektdə pul vəsaitlərinin uçotdan gizlədilməsi və ya uçota alınmaması, 4 vergiödəyicisinin isə “Fərqlənmə nişanı” olmadan avtomobil nəqliyyatı ilə sərnişindaşıma ilə məşğul olması faktları aşkarlanıb və həmin şəxslər barəsində qanunamüvafiq tədbirlər görülüb. Həmçinin vergidənyayınma və dövriyyənin gizlədilməsi hallarına qarşı mübarizə məqsədilə 1 vergiödəyicisində xronometraj metodu ilə müşahidə aparılıb və müşahidəyədək olan dövriyyə ilə müqayisədə artım qeydə alınıb, nəticədə, qanunvericiliyə uyğun olaraq müəyyən edilmiş əlavə vergi məbləğinin büdcəyə ödənilməsi təmin olunub.

***Naxçıvan Muxtar Respublikası Dövlət Vergi Xidmətinin mətbuat xidməti***

*Gəncliyimiz, gələcəyimiz*

## Elm, təhsil yolunda gənclərimizin qazandığı hər bir uğur Vətənimizin nurlu gələcəyidir

*Artıq neçə müddətdir ki, muxtar diyarımızın bir çox xəbər saytlarında, videobloqerlərin şəxsi sosial şəbəkələrində yayımlanan "Bir gəncin uğur yolu", "Naxçıvanlı tələbə Amerikanın ən nüfuzlu ali təhsil ocağında oxumaq hüququ qazanıb", "O, yurdumuzun qürur mənbəyidir" başlıqlı sərlövhələr bir çoxları kimi, mənim də diqqətimi çəkirdi. Həmin yazılardan öyrəndim ki, mövzuların əsas qəhrəmanı 14 nömrəli tam orta məktəbin məzunu Vəli Mustafasoydur. Qəlbində böyük Vətən eşqini, elm-irfan həvəsini, öyrənmək, öyrətmək amalını yaşadan, "mənsub olduğun xalqın ədəbiyyatını, incəsənətini, tarixini, milli-mənəvi dəyərlərini öyrənmək Vətənə xidmətin bir digər adıdır", – deyən bu gəncimiz yüksək təqaüdlə Amerika Birləşmiş Ştatlarının Miçiqan Universitetində təhsil almaq hüququnu qazanıb. Elm yolundakı kövrək addımlarını qətiyyətlə atan gənc qəhrəmanımız Vəli Mustafasoyla biz də yaxından tanış olduq, onun dünyanın ən qabaqcıl ali təhsil ocağında oxumaq hüququnu əldə etməsi üçün keçdiyi zəhmət yolunun, necə deyərlər, kiçik tarixçəsini dinlədik.*



İstedadlı gəncimiz söhbətimizə, ilk əvvəl, özü haqqında, məktəb illərindəki müvəffəqiyyətləri barədə danışmaqla başladı:

– Hələ ibtidai sinifdə oxuduğum illərdən etibarən çoxcildli ensiklopediyaları, roman və bədii ədəbiyyat nümunələrini mütaliə etməyə başlamışdım. Kitab oxumaq bir hobbi deyil, vərdiş də deyil, kitab oxumaq mənim timsalımda bütün gənclərimiz üçün bir mənəvi tələbat olmalıdır. Mənim üçün daha çox astronomiya, coğrafiya, fizika kimi sahələr böyük maraq kəsb edirdi. Çünki həyatımızın bir çox sahələrində sadaladığım bu elmlərin müstəsna rolunun olduğunu yaxşı bilirdim. Anam həmişə uşaqlıq illərimi mənə xatırladaraq deyir ki, bizlərə ünvanladığın sualların əksəriyyəti də məhz bu istiqamətlərdə olurdu. Daim axtarışda olmağın, araşdırmağın, yeni mövzuları mənimsəməyə cəhd göstərməyin insan həyatındakı rolu əvəzolunmazdır. Mən günümün müəyyən hissəsini dərs oxumaqla keçirirdimsə, geri qalan hissəsini də, qeyd etdiyim kimi, mütaliə edir, sosial şəbəkələrdə mənə faydası olacaq videomateriallar izləyirdim. Məqsədimdə olan ali təhsil ocaqları içərisində bir neçə universitet var idi ki, onlara da qəbul son illər təhsil arenasında daha çox vüsət alan IELTS imtahanları ilə həyata keçirilirdi. Bu imtahanların tədris qaydası da, məlum olduğu kimi, yalnız xarici dil bilməklə, ən əsası isə ingilis dilini dərindən mənimsəməklə tətbiq olunur. Bir tələbə kimi illərdir, çəkdiyim zəhmətin, yuxusuz gecələrimin, valideynlərimin, müəllimlərimin mənim üçün yaratdığı imkanların nəticəsini maksimum 9 ballıq IELTS imtahanında 8 bal nəticə göstərməklə, SAT imtahanından isə maksimum 1600 bal üzərindən 1480 bal toplamaqla doğrultmağa nail oldum. Bütün ailəmizin, məktəbimizin dəyərli müəllim-tələbə kollektivinin simasındakı xoşbəxtlik, mənə qürur dolu baxışları, təbii ki, illərdir, çəkdiyim bu zəhmətin ən gözəl nəticəsi idi. Uşaqlıq illərimdən bəri qəlbimdə daşıdığım arzuma, diləyimə qovuşmuşdum, bəli, mən artıq Amerikanın ən nüfuzlu ali təhsil ocaqlarından birinin tələbəsi idim. Hərdən yoldaşlarım mənə sual verirlər ki, nəyə görə ölkə hüdudlarından kənarda təhsil almaq səni bu qədər özünə cəlb edir? Mən isə düşünürəm ki, Vətənini, yurdunu, doğma el-obanı xaricdə təbliğ etməyin, tanıtmağın nəyi pisdir ki? Mən qazandığım bu elm yoluna həm də Vətənə xidmət vasitəsi kimi baxıram. Yaxşı dərk edirəm ki, mənsub olduğun xalqın ədəbiyyatını, incəsənətini, tarixini, milli-mənəvi dəyərlərini öyrənmək Vətənə xidmətin bir digər adıdır. Düzdür, təhsil alacağım illər ərzində öz doğma elimdən, ən əsası isə öz doğma dilimdən ayrı düşsəm də, mən ana dilimi heç zaman unutmaram. Çünki düşdüyüm mühitdə nə qədər xarici dildə danışsam da, öz daxili dünyamdakı dilim doğma ana dilim olacaq, özüm-özümlə yalnız bu dildə danışacağam...

Uğur hekayələrinin qəhrəmanları fərqli-fərqli insanlar olsalar da, onların getdiyi yol gərgin zəhmətdən, yuxusuz gecələrdən, öyrənmək, oxumaq, daim axtarışda olmaq məramından keçir. Bir də həmin hekayələrin qəhrəmanları, adətən, müvəffəqiyyət qazanmaq üçün bir sahəni özlərinə hədəf seçərək o yolda səylə çalışırlar. Müsahibimizin şagirdlik illərindəki zəhməti yalnız elm sahəsində özünü doğrultmayıb, o həm də idman sahəsində bir neçə uğura imza atıb:

– Uşaqlıq illərimdən atamın məni idmana sövq etməsi, hesab edirəm ki, bu istiqamətdəki uğurlarımın başlıca meyarıdır. Bu yolu qət etmiş gənc kimi demək istəyirəm ki, insanda bir sahəyə olan marağın bünövrəsi uşaqlıq illərindən qoyulur, bu maraq ona valideynləri tərəfindən də aşılana bilər, ətraf mühit tərəfindən də. Ən əsası odur ki, insanın görüb-götürdüyü, özünə ideal seçdiyi hər bir addım gələcəyinə və bu gününə fayda verən məşğuliyyət olsun. Atamın məni idmana yönəltməsi sayəsində bu sahədə də anlayışlarım formalaşdı, sağlam bədən sağlam düşüncənin məhsuludur, – deyib böyük səbirlə idmanın sirlərini qavradım. Bu mənim nə dərsimə mane olurdu, nə də məqsədimə. Düzdür, hədəfim idmançı olmaq deyildi, amma bu istiqamətdə də fəallıq göstərməyim mənim sağlamlığıma faydalı olduğu kimi, həm də zamanımı səmərəli keçirməyə kömək edirdi. İdman sahəm olan kikboksinq üzrə bir çox diplomlara, medallara layiq görülmüşəm, o cümlədən Gürcüstan Respublikasında keçirilən Qafqaz yarışında üçüncü yerin qalibi olmuşam. Onu da qeyd edim ki, 10-cu sinifə qədər keçirilən bütün sınaq imtahanlarında məktəbimiz üzrə birinciliyi qoruyub saxlamışam, 9-cu sinifdə oxuduğum dövrdə isə Azərbaycan dili fənnindən keçirilən muxtar respublika olimpiadasında üçüncü yerin qalibi olmuşam.

Müsahibimiz Azərbaycan təhsil sahəsinə bir qədər yad olan seçdiyi Sivil mühəndisliyi ixtisası barədə də məlumatı bizimlə bölüşdü:

– Hər birimizə məlumdur ki, daim yenilənən, inkişaf edən dünyada daha prestijli və əlverişli ixtisasların yaranması zəruri hala çevrilib. Hətta mütəxəssislərin qənaəti belədir ki, rəqəmsal dövrün bu qədər sürətli inteqrasiyası gələcəkdə bir çox ixtisasların, peşələrin ortadan qalxmasına səbəb olacaq. Hansı ki həmin peşələr artıq yeni dünya mühitinin tələblərinə cavab verməyən, bir az da mübaliğəli desək, passiv ixtisas sahələridir. Lakin mənim seçdiyim, nəinki Azərbaycanda, dünyanın bir çox regionlarının praktikasında yeni bir yanaşma olan Sivil mühəndislik və ya mühəndislik ixtisası gələcəkdə bir çox sahələrdə karyera qurmağımızda bizə kömək edəcək. Mənim diqqətimi daha çox Sivil mühəndisliyinin bir qolu olan Yol-nəqliyyat mühəndisliyi ixtisası çəkir. Bir qədər ağır məsuliyyət, optimal yanaşma, yüksək mühəndis baxış bucağının imkanları bahasına qazanacağımız bu sahəyə inanıram ki, gələcəkdə Azərbaycanda da böyük tələbat olacaq. Bu mənada, bir nüansı diqqətinizə çatdırım, təkcə bu faktı bilmək kifayət edər ki, sivil mühəndislər həyat dövrünün hər mərhələsində baş verən qiymətləndirmələrin bir hissəsi kimi mühəndis iqtisadiyyatının oynadığı rolu tanımaq üçün təlim almalıdırlar. Bu təlim tədris dövrünün, necə deyərlər, başlıca amillərindəndir.

Böyük Qərb psixoloqu, həkim-nevroloq Ziqmund Freyd özünün məşhur psixoanaliz nəzəriyyəsində bir vacib mətləbə toxunaraq yazır ki, hər bir sahədə uğur əldə edən, daim ilk olmağa can atan kişinin arxasında ona inamı sonsuz olan bir qadın obrazı – Ana dayanmaqdadır. Gənc müsahibimiz Vəlinin həm müəllimi, həm də valideyni olan Zamilə xanımın onun həyatındakı rolu inkaredilməzdir. Müsahibimiz deyir: "Vəli ilk dil açanda belə işlətdiyi sözlər, cümlələr ancaq suallar idi. Onun hələ körpəlikdən hər şeyə olan marağı, daim öyrənmək meyli gələcəyi haqqında bizə çox şeylər vəd edirdi. Yazıb-oxumağı mənimsədikdən sonra isə artıq kitablar oxuyur, araşdırır, yeniliyə can atır, daim nə isə öyrənmək istəyirdi. Xatırlayıram ki, orta məktəbin birinci sinfinə daxil olarkən Vəli artıq bir çox kitab mütaliə etmişdi. Həm valideyni, həm də fizika müəllimi kimi deyərdim ki, 15 illik pedaqoji fəaliyyətimdə Vəli dərs zamanı məni ən çox sıxışdıran şagirdlərdən olub. Hər dəfə sinifdə şagirdlərimə "kimin nə sualı var?" dedikdə, bilirdim ki, Vəli istər mövzu barəsində, istərsə də ona maraqlı gələn başqa bir istiqamətdə sual ünvanlayacaq. Etiraf edim ki, bəzən onun suallarına cavab verə bilməyəcəyimdən ehtiyat etdiyim anlar olub. Vəli ikinci sinifdə oxuduğu illərdən xaricdə oxumaq arzusunda idi. Bu məqsədini də hər dəfə dilə gətirirdi. Biz ailə üzvləri olaraq ona daim dəstək göstərmişik, o da bütün məsuliyyəti öz çiyinlərinə götürərək müvəffəqiyyət qazanıb, bizi sevindirib. Bir valideyn üçün ən böyük xoşbəxtlikdir ki, övladının qazandığı nailiyyət ona başucalığı gətirə. Arzu edirəm ki, bütün gənclərimiz Vətənimizi hər yerdə layiqincə təmsil etsinlər. Həm bir müəllim, həm də valideyn kimi dövlətimizin göstərdiyi diqqətə görə minnətdarlığımı bildirirəm".

*Bir bağban üçün illərdir, zəhmətin çəkdiyi bağı bar gətirib onu necə sevindirirsə, valideyn üçün də övladının nailiyyəti onun sevincidir, başucalığıdır, qürur mənbəyidir. Bu gün gənclərimizin bir çoxu Vətənimizi hər bir sahədə uğurla təbliğ edir, onun inkişafına, nurlu gələcəyinə öz töhfəsini verirlər. Tezliklə gənc qəhrəmanımız – Amerikanın ən nüfuzlu ali təhsil ocaqlarından birində təhsil alacaq. Vəli Mustafasoy başda olmaqla elm ümmanında qətiyyətlə irəliləyən bütün gənclərimizə müvəffəqiyyətlər arzu edirik...*

✍ **Məcid RƏŞADƏTOĞLU**




**2022-ci il "Şuşa ili"dir**

## Şuşa ətirli xarıbülbülüm

Salam olsun sənə, xarıbülbülüm. Salam olsun sənə, şah qamətli gülüm. Bir zamanlar sən bizlər üçün nisgil, kədər, ağrı, həsrət simvolu idin. Ay gözəl gülüm, Şuşanın maralı gülüm, bağrına dağ çəkildiyini, torpaqlarının viran olduğunu gördükcə yanırdı sinəmizdə alovlu od... Yanar odun sönəcəyi günü həsrətlə gözləyirdik. Yerlər, göylər də dözə bilmirdi bu iztiraba. Gözün dolmuş, yanaqlarınsa, solmuşdu. Düşünürdün ki, bu ah-naləni görmürükmü? Hər çəkdiyin naləni gördükcə dünyadan tədirgin olurduq bilirsənmi? Sənə qovuşub toxunacağımız günün, ətirli iyini ciyərlərimizə çəkəcəyimiz günün xəyalları ilə yaşayırdıq. Ay gözəl gülüm, bu günün gerçəkliyini yaşamaq üçün bir igidin ömrü qədər gözlədik. Xarıbülbülüm, düz 29 il qəfəsdə qaldın. Başın çox bəlalar çəkdi, lakin boyun əymədin düşmənə. Uzun illər düşmən tapdağı altında qalsan da, ana yurdumuzun, Qarabağımızın düşmənə məxsus olmadığını bəyan etdin hər kəsə.

2020-ci il 8 noyabr tarixi Zəfər Günü kimi tariximizə qızıl hərflərlə yazıldı. Ali Baş Komandan Fəxri Xiyabanda ulu öndər Heydər Əliyevin məzarının önündə atasının ona olan etimadını doğrultduğunu və onun vəsiyyətini yerinə yetirdiyini ürəkdolusu, məğrurcasına dilə gətirdi. Necə ki ulu öndər Heydər Əliyev demişdi: ***"İnanıram ki, mənim axıra çatdıra bilmədiyim taleyüklü məsələləri, planları, işləri sizin köməyiniz və dəstəyinizlə İlham Əliyev başa çatdıra biləcək. Mən ona özüm qədər inanıram və gələcəyinə ümidlər bəsləyirəm".*** Bəli, həmin gün Şuşa qoxulu xarıbülbülümüzə qovuşduq, azadlığımıza qovuşduq, illərdir, elimizdən ayrı düşən doğma yurdumuza qovuşduq. Qarabağımıza gün nisgilimizə son qoyuldu.

Xarıbülbülüm, sən məhəbbət rəmzisən, sədaqətin özüsən. Sən həm də cənnət rəmzisən. Sənin özəlliyin ondadır ki, torpağından ayrı düşəndə solub məhv olursan. Sən adi çiçəkdən çox bir möcüzəyə bənzəyirsən. Xırda, bənövşəyi rəngli ləçəklərinlə, otların, başqa gül-çiçəklərin içərisindən çətinliklə seçilirsən...

Artıq Şuşamızda yeni həyat başlayıb. Biz əmindik Şuşamızın azadlığına qovuşacağına, əmindik sürətli quruculuq və abadlıq işlərinin aparılacağına, ən əsası əmindik Şuşa torpağının festivallara, poeziya günlərinə, mədəni tədbirlərə və bir çox başqa tədbirlərə ev sahibliyi edəcəyinə. Elə bu yaxınlarda keçirilən V "Xarıbülbül" Beynəlxalq Folklor Festivalı da dediklərimizi bir daha təsdiq edirdi.

Bilirəm gözün yolda qalmışdı, xarıbülbülüm, illərdir, şəninə şeirlər qoşub, nəğmələr söyləyən övladlarının səsini eşitmirdin. Düz 30 il sonra Qarabağ torpağında "Xarıbülbül" Festivalının keçirildiyini görəndə göz yaşını tökməmək əlində deyildi. Şuşanın hər dağı, hər daşı səsinə səs verirdi. Eşidirsənmi, xarıbülbülüm, – deyə sənə səslənirdilər. Bu gələn səs doğmalarımızın səsidir, bu gələn səs milli musiqi alətlərimizin səsidir, – deyə hay verirdin onlara... Festivalı elə tükənməz sevgi ilə izləyirdin ki, baxışınla hər şeyi ifadə edirdin. Ay gözəl gülüm, sevinən təkcə sən deyildin. Sevinirdi böyük Vaqifin, Natəvanın, Zakirin, Üzeyirin, Bülbülün ruhları... Çünki onların da nigarançılığına son qoyulmuşdu.

Üç gün davam edən sayca beşinci festival çərçivəsində milli rəqs, muğam sənəti təqdim olundu, ölkəmizin müxtəlif regionlarını təmsil edən folklor kollektivlərinin konsertləri keçirildi, Azərbaycan xanəndələrinin müxtəlif illərdə Şuşada lentə alınmış ifalarından ibarət videoçarxlar nümayiş etdirildi, klassik musiqi əsərləri təqdim olundu. Festivalın bağlanış konsertində Ankara Türk Dünyası Musiqisi və Xalq Rəqsləri Ansamblı, "Melitassi" Folklor Rəqs Ansamblı (Gürcüstan) və Azərbaycan Dövlət Rəqs Ansamblının musiqi sədaları altında çıxış etdilər. Onların milli musiqi sədaları altında çıxışları hər birimizi valeh etdi.

**Nuray ƏSGƏROVA**

## Azərbaycan Respublikası Mərkəzi Bankının Naxçıvan Muxtar Respublikası İdarəsinin yeni qaynar xətti istifadəyə verilmişdir




Azərbaycan Respublikası Mərkəzi Bankının Naxçıvan Muxtar Respublikası İdarəsi tərəfindən daxil olan müraciətlərin çoxluğu nəzərə alınaraq vətəndaşların şikayətlərinin operativ şəkildə həll olunması məqsədilə qaynar xətt istifadəyə verilmişdir. Qeyd edək ki, vətəndaşların bank məhsul və xidmətləri ilə bağlı qarşılaşdıqları bir sıra problemləri həll etmək, eləcə də onlara problemlərin həlli istiqamətində dəstək göstərmək məqsədilə Azərbaycan Respublikası Mərkəzi Bankının Naxçıvan Muxtar Respublikası İdarəsi mövcud xidmətlərini daha da təkmilləşdirmiş və yeni xidmətlər təqdim etmişdir. Yenicə istifadəyə verilmiş "2244" qaynar xətt xidmətinə bank sahəsində dəstəyə ehtiyacı olan bank müştəriləri, eləcə də bütün vətəndaşlar müraciət edə bilərlər.

Digər tərəfdən bank sahəsində baş verən şikayətlərin yazılı və görüntülü şəkildə "WhatsApp" qaynar xəttinə ((060) 400-22-44) göndərilməsi üçün xidmət də aktiv edilmişdir.

İlkin mərhələdə yaradılmış xidmətlərin daha geniş kütləyə çatdırılması və bununla da istehlakçıların hüquqlarının qorunması istiqamətində işlər davam etdiriləcəkdir.

Daxil olan bütün müraciətlər qanunvericiliklə müəyyən edilmiş qaydada və müddətdə hərtərəfli, tam və obyektiv araşdırılacaq və həlli istiqamətində operativ işlər görüləcəkdir.

"Qaynar xətt" xidməti həftənin hər günü 7/24 saat fəaliyyət göstərəcəkdir. Onun tətbiqində əsas prioritet vətəndaşların bank məhsul və xidmətlərinə əlçatanlığının təmin olunması ilə müştəri məmnuniyyətinin artırılması olacaqdır.

**Xəbərlər şöbəsi**

*Bu gün cəmiyyətimiz gənc nəslin vətənpərvər ruhda böyüməsinə, mənəvi və fiziki tərbiyəsinə, sağlamlığının qorunmasına strateji əhəmiyyətli və prioritet məsələ kimi baxır. Çünki gənclərin sağlam fərd kimi formalaşması onların gələcəkdə cəmiyyətə inteqrasiyasında önəmli rol oynayır. Naxçıvan Muxtar Respublikasında da bu sahəyə xüsusi diqqət və qayğı ilə yanaşılır, gənc nəslin nümayəndələri arasında idmanın təbliği ümumtəhsil məktəbləri şagirdlərinin fiziki tərbiyə sisteminin inkişaf etdirilməsi, yaşayış yerlərində əhalinin bədən tərbiyəsi, sağlamlıq və idmanyönümlü məşğələlərə cəlb olunması qarşıya qoyulan əsas məqsədlərdəndir. Digər tərəfdən idman federasiyalarının işinin təkmilləşdirilməsi üçün mühüm addımlar atılır ki, bu da gənclərin uğurlu karyera qurmasına zəmin yaradır. Son illər Naxçıvan Muxtar Respublikası Şahmat Federasiyasının apardığı məqsədyönlü siyasət istedadlı gənclərin üzə çıxması, onların beynəlxalq turnirlərdə uğur qazanması ilə nəticələnib. Federasiyanın yetirməsi Nazlı Hümbətovanın son olaraq qazandığı uğur da buna bir nümunədir.*

## Azərbaycan şahmatının Nazlı qızı



*Uğurlu başlanğıc*

Nazlı Hümbətova 15 oktyabr 2007-ci ildə Naxçıvan şəhərində dünyaya gəlib. Onun ağ-qara fiqurlarla ilk tanışlığı 6 yaşına təsadüf edir. Atası və babası şahmat həvəskarı olan Nazlının ilk müəllimləri də elə onlar olub. Şahmata olan həvəs və mühitdən irəli gələn ənənə özünü çox gözlətməyib. Potensialı uşaqlıqdan hiss edilən Hümbətovanı valideynləri onu şahmata yazdırmaq qərarına gəlir. Bura gələrkən artıq şahmatın əlifbasına bələd olan Nazlının ilk müəllimi Hüseyn Əliyev olub. Çox keçmədən istedadı ilə seçilən zəka sahibimiz ardıcıl uğurlar qazanmaqla ona göstərilən etimadı doğruldur.

Naxçıvan hər zaman Azərbaycan idmanına istedadlı gənclər bəxş etməklə seçilib. Xüsusilə idmanın zehni və güc növlərində bunun davamlı xarakter alması, düzgün qurulan idman siyasətinin bəhrəsidir. Zehni idman növləri idmançılarımızın intellektual, güc idman növləri isə əcdadlarımızın döyüşkən olduğunu sübut edir. Təbii ki, zehin və gücün birləşməsi istedadların daha böyük uğurlar qazanması deməkdir. Nazlı Hümbətova da bu ənənəyə sadiq qalan, bu adət üzrə yetişən idmançılarımızdandır. Uğurlarına nəzər yetirdikdə, gənc zəka sahibimizin parlaq karyerasının qabaqda olduğunu deyə bilərik. İlk dəfə keçirilən muxtar respublika birinciliyində gümüş medal qazanan Nazlı Hümbətova 2014-cü ildə Gürcüstanın Tbilisi şəhərində təşkil olunan beynəlxalq turnirdə baxımlı oyunu ilə seçildi. Məhz bu nəticə onun 2014-cü ildə Yunanıstanın Kavala şəhərində keçirilən məktəblilərin Avropa çempionatına getməsinə səbəb oldu. Bu yarışlarda xeyli təcrübə toplayan gənc şahmatçımız bir il sonra Şəmkir şəhərində təşkil olunan Azərbaycan çempionatının seçmə yarışlarını birinci pillədə başa vurdu. Təbii ki, Nazlı üçün ən önəmli yarış muxtar respublikamızda təşkil olunan beynəlxalq şahmat festivalıdır. 2016-cı ildə bu festivalın üçüncüsü olan 15 yaşlı zəka sahibimiz 2020-ci ildək Türkiyənin Ankara, Çubuk, Malatya şəhərlərində keçirilən beynəlxalq turnirlərdə, eləcə də Ağsu, Ağcabədi şəhərlərində təşkil olunan ölkə birinciliyinin seçmə yarışlarında mükafatçılar sırasına düşməklə, ona göstərilən etimadı bir daha doğrultdu: "Qazandığım uğurların heç biri təsadüfi deyil. Bu, məşqçilərin əməyinin bəhrəsidir. Onlar hər zaman mənə böyük etimad göstərdilər, uğur qazanacağımı dedilər və bu sözləri yaddaşma həkk etdim".

*Yeni çempion*

Nazlı Hümbətova üçün ən böyük sınaq ilk dəfə Naxçıvanda təşkil olunan şahmat üzrə qadınlar arasında Azərbaycan çempionatı idi. Birincilikdə ölkənin bir çox tanınmış zəka sahibləri ilə başabaş mübarizə aparan, hətta onlardan xal almağı bacaran şahmatçımız, həm də oyun praktikasını, keyfiyyətini yüksəltmiş oldu. Məhz bu yarışdan sonra Türkiyənin Kırşehir şəhərində təşkil olunan beynəlxalq turnirdə o, fəxri kürsünün ən yüksək pilləsinə qalxmağa müvəffəq oldu.

Naxçıvan şəhərindəki 5 nömrəli tam orta məktəbin şagirdi olan Nazlı Hümbətova son olaraq Azərbaycan çempionatında iştirak edərək böyük uğura imza atdı. 16 yaşlı qızlar arasında ölkə çempionu adını qazanan idmançımız o anları belə xatırlayır: "Bu yarışa ciddi hazırlaşmışdım. Müəllimlərim də uğur qazanacağıma inanırdı. İlk turlarda rəqiblərin oyun üslubu bir az çətin olur, ancaq sonradan digər nəticələrə baxıb rəqibin hansı taktika ilə oynayacağını bilirsən. Hazırlıq dönəmindən daha çox bunun üzərində çalışırdım. Şükürlər olsun ki, əməyim nəticəsiz qalmadı və ölkə çempionu oldum".

*"Qızıl kitabı"n üzvü*

Gənc istedadların xüsusi təqaüdə layiq görülməsi haqqında Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun 2021-ci il 12 iyul tarixli Sərəncamı ilə Nazlı Hümbətovanın adı Naxçıvan Muxtar Respublikası Gənc İstedadlarının "Qızıl kitabı"na yazıldı və Ali Məclis Sədrinin xüsusi aylıq təqaüdünə layiq görüldü. Bu meyar, təbii ki, muxtar respublikada gənc istedadlara göstərilən dövlət qayğısının bariz nümunəsidir. Bu qayğıdan bəhrələnən gənc şahmatçımızın fikrincə, ona göstərilən etimad məsuliyyətini daha da artırır: "İndi bir məqsədim var: reytinq əmsalımı yüksəltmək və FIDE ustası adını almaq. Bunun üçün öz üzərimdə çox çalışmalı, yarışlarda, turnirlərdə mükafatçılar sırasına düşməliyəm. Bu gün Naxçıvanda bizlər üçün hər bir şərait yaradılıb, dərslərimizi ən müasir idman məktəblərində keçirik. Şahmat Federasiyası bütün yarışlarda iştirakımızı təmin edir. Biz də, öz növbəmizdə, uğur qazanıb göstərilən etimadı doğrultmağa çalışırıq. Adımın kitaba yazılması həm də mənim məsuliyyətimi xeyli artırıb. İndi düşüncəm yalnız şahmatdır. Gələcəkdə Azərbaycanın ən böyük qadın şahmatçılarından biri olmaq istəyirəm".

*Çətin və mürəkkəb oyunları sevən Nazlı*

Siciliya, slavyan, holland, hind müdafiəsi oynamaq, rapid, blits, klassik şahmatda gücünü göstərmək hər bir şahmatçıya qismət olmur. Bunun üçün şahmatçının aktiv və ya passiv halda olması mütləqdir. Nazlı Hümbətova tərz olaraq təmkinli və səbirlə oynamağı sevir. Rəqibin hər hansı səhvi onun hücumu ilə nəticələnir. Üslub cəhətdən Anatoli Karpov və Vasili Smıslov Nazlının kumirləridir. Karpovun oyun mövqeləri baxımından əla intuisiyasını, müdafiə oyununu, Smıslovun isə hücumlara qarşı "vəhşi hücum" taktikası Nazlının əsas oyun prinspidir. Eyni zamanda o, şahmatçıların ehtiva etdiyi şahmat nəzəriyyəsi, strategiyası və oyundakı yenilikləri öyrənməyi sevir.

*Ən böyük arzusu və hobbisi*

6 yaşından bu idman növünün sirlərini öyrənən Nazlı Hümbətovanın ən böyük arzusu tərcüməçi olmaq idi: "Əgər bu sahədə uğur qazana bilməsəydim, tərcüməçi olacaqdım. Yenə bu arzumu reallaşdıra bilərəm. Bunun üçün şahmatla yanaşı, dərslərimə də böyük önəm verir, təhsilimi davam etdirirəm. Gələcəkdə bu idman növü ilə yanaşı, sevdiyim ixtisas üzrə də çalışmaq istərdim". Gənc şahmatçımızın ən böyük hobbisi isə üzməkdir. Boş vaxtlarında üzgüçülüklə məşğul olan Nazlı, bu növ üzrə keçirilən beynəlxalq yarışları da izləməyi sevir.

*Portret*

Şahmat diqqət və fikrin bir nöqtəyə yönəldilməsini tələb edən idman növüdür. Digər növlərdən fərqli olaraq burada səbirli, sakit olmağın və düzgün qərar verməyin sənə qələbə qazandırır. Hisslərin səni boğmağa çalışsa da, daim gülər üzünün olması rəqibə də psixoloji təsir göstərə bilər. Səbəb: rəqibin fikrini yayındırmaq sənin növbəti uğurlu gedişindir. Yaşından asılı olmayaraq, buna qərar vermək böyük məsuliyyət tələb edir. Xüsusilə qadınlarda. Qalib və məğlub olmalarına baxmayaraq, qadınlara məhz gülərüzlü olmaları yaraşır. Elə Nazlı kimi. Uğurlu karyerasında gülər üzünün ona daha böyük nailiyyətlər qazandıracağına inanırıq...

## Atletika Federasiyasının idmançıları mükafatlandırılıb



*Naxçıvan Muxtar Respublikası Atletika Federasiyasının məşqçi və idmançıları ölkə və beynəlxalq turnirlərdə qazandıqları uğurlara görə mükafatlandırılıblar.*

Keçirilən tədbirdə məşqçi və idmançıları təbrik edən Atletika Federasiyasının sədri Rəhman Məmmədov bildirib ki, 6 ay ərzində idmançılarımız iştirak etdikləri ölkədaxili və beynəlxalq turnirlərdə 16 medal qazanıblar. Qazanılan uğurlu nəticələr muxtar respublikamızda yaradılan müasir idman şəraitinin bəhrəsidir. Bu gün Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin idmana göstərdiyi diqqət və qayğı sayəsində idmançılarımız daim uğurlu nəticələrə nail olur, Naxçıvan idmanını layiqincə təmsil edirlər. Hazırda idmanın inkişafı üçün muxtar respublikanın şəhər və rayonlarında müasir idman infrastrukturu yaradılıb. Həmçinin "2020-2025-ci illər üçün Naxçıvan Muxtar Respublikasında idmanın inkişafına dair Dövlət Proqramı" qəbul olunub. Məktəblərdə 205 idman klubu yaradılıb ki, bu klubların məqsədi uşaq və gənclərin idmana cəlbinin kütləvi xarakter almasını təmin olunmasına, istedadlı idmançıların üzə çıxarılmasına xidmət etməkdir.

Federasiya sədri diqqətə çatdırıb ki, 6 ay ərzində federasiyanın idmançıları ölkəsəviyyəli yarışlarda 9-u qızıl, 3-ü gümüş, 4-ü isə bürünc olmaqla, 16 medal qazanıb. Bunlardan 8-i iyun ayında əldə edilib. Bu, federasiya tarixində ən uğurlu nəticədir. Əldə edilən nailiyyətlərə görə məşqçilərə təşəkkür edən Rəhman Məmmədov deyib ki, qazanılan bu uğurlarla kifayətlənmək olmaz. İndi qarşıda keçiriləcək yarışlara, turnirlərə ciddi hazırlaşıb uğur qazanmaq və beynəlxalq turnirlərdə nəticələr əldə etmək lazımdır.

Sonra Atletika Federasiyasının sədr müavini İntiqam Rəhimov çıxış edib, məşqçi və idmançıların fikir və təkliflərini dinlənilib.

Ardınca cari ilin ilk 6 ayında uğur qazanan məşqçi və idmançılar – idmançılardan Aysu Babayeva, Əmrah Nağıyev, Həsən Babayev, Zeynəb Babayeva, Zülfiyyə Süleymanova və Səkinə Əliyeva, məşqçilərdən isə Şəfi Hüseynov, Abbas Bağırov və Samil Hüseynov təltif olunublar. Federasiya sədri Rəhman Məmmədov tərəfindən onlara təşəkkürnamə və pul mükafatları təqdim edilib.

Sonda Naxçıvan Muxtar Respublikası Atletika Federasiyasının sədri Rəhman Məmmədov yaradılan şəraitə görə federasiyanın məşqçiləri və idmançıları adından Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədrinə minnətdarlığını bildirib.

**Ceyhun MƏMMƏDOV**

## Naxçıvan şəhərində yaşayan şəhid ailələri ziyarət olunub



Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyi, Gənclər Fondu və Azərbaycan Vətən Müharibəsi Veteranları və Şəhid Ailələri Naxçıvan Muxtar Respublika Təşkilatının birgə təşkilatçılığı ilə bir qrup könüllü gənc tərəfindən Qaraxanbəyli, Qaraçuq və Tunbul kəndlərində yaşayan şəhid ailələri ziyarət olunub. Tədbir iştirakçıları bu məqsədlə şəhidlərimiz Sahil Məmmədov, İslam Eyvazov, Pərviz Məmmədov, Seymur İbrahimov və Araz Məmmədovun ailə üzvləri ilə görüşərək onların həyatı, keçdiyi döyüş yolu və qəhrəmanlıqları barədə məlumatlanıblar. Gənclər və idman nazirinin müavini, Azərbaycan Vətən Müharibəsi Veteranları və Şəhid Ailələri Naxçıvan Muxtar Respublika Təşkilatının sədri Məcid Seyidov və Milli Məclisin deputatı, Gənclər Fondunun icraçı direktoru Cəbi Quliyev görüşlər zamanı şücaətli, cəsur, eyni zamanda vətənpərvər övlad yetişdirdikləri üçün şəhid valideynlərinə minnətdarlıqlarını bildiriblər.

İştirakçılara qəhrəman şəhidlərimizin xidməti fəaliyyətləri barədə məlumat verilib, qeyd olunub ki, şəhidlik Vətənə məhəbbətin zirvəsidir. Şəhidlik adı ölüm deyil, Vətən, torpaq, böyük amallar uğrunda candan keçmək, özünü şüurlu şəkildə qurban vermək deməkdir. Vətən yolunda şəhidlik əsl qeyrət, hünər, şərəf və ləyaqət zirvəsidir.

***Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyinin mətbuat xidməti***

## Növbəti dezinfeksiya işləri aparılıb



İyul ayının 1-dən etibarən Naxçıvan Muxtar Respublikası Fövqəladə Hallar Nazirliyi, Gigiyena və Epidemiologiya Mərkəzi və Dövlət Baytarlıq Xidmətinin birgə təşkilatçılığı ilə bütün yaşayış məntəqələrində və əhali sıxlığı müşahidə olunan yerlərdə qrafikə uyğun növbəti dezinfeksiya işləri aparılır. Əsasən, bazarlar və böyük ticarət mərkəzləri, muzeylər, istehsal müəssisələri, mərkəzi və yerli icra hakimiyyəti orqanlarının, idarə, müəssisə və təşkilatların inzibati binaları və xidmət sahələri dezinfeksiya olunur.

Dünən Naxçıvan şəhərində viruslara yoluxmanın qarşısının alınması, bu sahədə aparılan müvafiq profilaktik tədbirlərin effektivliyinin yüksəldilməsi məqsədilə Naxçıvan Beynəlxalq Hava Limanının avtomobil dayanacaqları, yolları, inzibati binaları, Heydər Əliyev Sarayının girişi, ətrafı, yaşayış binaları, parklar, inzibati binalar və digər ərazilər dərmanlanıb.

Qurban bayramı ərəfəsində insanların "Əshabi-Kəhf Ziyarətgahı" Dini-Mədəni Abidə Kompleksinə ziyarətlərinin sayı daha da artıb. Bu fakt nəzərə alınmaqla ziyarətgahda namaz otağı, pilləkən qəfəsləri, oturacaqlar və insanların daha çox istifadə etdiyi yerlər dezinfeksiya edilib. Bununla da dünən Naxçıvan şəhərində 912 min kvadratmetrdən çox ərazi dezinfeksiya olunub.

Muxtar respublikada tibbi-profilaktik tədbirlər rayonlarda da intensiv aparılır. Bugünkü dezinfeksiya işləri idarə, müəssisə və təşkilatları, ticarət obyektlərini, istehsal müəssisələrini, kənd və xidmət məkanlarını, yaşayış binalarını, park və



istirahət mərkəzlərini, ümumiyyətlə, əhalinin daha çox istifadə etdiyi məkanları əhatə edib.

Muxtar respublikanın rayonlarında isə dünən 715 min kvadratmetrdən çox sahədə dezinfeksiya işləri aparılıb. Ümumilikdə, dünən muxtar respublikada 1 milyon 627 min kvadratmetrdən artıq sahə dərmanlanıb.

**Xəbərlər şöbəsi**


ŞƏRQ qapısı

Baş redaktor: MEHRİBAN SULTANOVA

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi 14.

Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Səbuhi Həsənov

Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.

Tiraj: 1500. Sifariş № 596